KİTABŞÜNASLIQ VƏ REDAKTOR SƏNƏTİ
elmi-nəzəri və təcrübi-metodik jurnal

№ 2 (15) 2022

ƏDƏBİYYATŞÜNASLIQ

**Sənubər Rövşən qızı Tapdıqova**
***Bakı Dövlət Universiteti***
***Filologiya fakültəsi Azərbaycan ədəbiyyatı kafedrasının magistrantı***
*tapdiqlisenuber@gmail.com*

## NƏCƏF BƏY VƏZİROV DRAMATURGİYASINDA QADIN OBRAZLARI

***Xülasə:*** *M.F.Axundov maarifçiliyinin davamçısı, görkəmli dramaturq Nəcəf bəy Vəzirov öz yaradıcılığı ilə ədəbiyyatımızı rəngarəng qadın obrazları ilə zənginləşdirmişdir. Bunun əsas səbəbi dövrün cahilliyi altında boğulan qadınların halını təsvir etmək, İslam dini adı altında şarlatanlıqla məşğul olan ruhanilərin iç üzünü göstərmək idi. Nəcəf bəy Vəzirovun yaratdığı ilk qadın obrazları haqsızlıq qarşısında öz etirazlarını bildirsələr də, fikirlərini tam açıq söyləməkdə əziyyət çəkirdilər. Vəzirov dram əsərlərində qadın obrazlarına birtərəfli yanaşmamış, həm qadınların haqqlarını müdafiə etmiş, eyni zamanda da cəhalətə uyan qadın obrazlarını kəskin tənqid hədəfinə çevirmişdir. Vəzirovun yaratdığı Səadət xanım isə tip səviyyəsinə qaldırılır, Fəxrəddinlə eyni cərgədə mövhumata qarşı mübarizə aparır.*

***Açar sözlər:*** *dramaturgiya, qadın obrazları, Nəcəf bəy Vəzirov, tip və obraz anlayışları.*

**Sanuber Rovshan gizi Tapdiqova**

## Female images in the dramaturgy of Najaf bey Vazirov

***Abstract:*** *The successor of M.F.Akhundov's enlightenment, prominent playwright Najaf bey Vazirov enriched our literature with colorful images of women with his creativity. The main reason for this was to describe the situation of women who drowned under the ignorance of the time, to show the inside of the clergy who practiced charlatan under the name of Islam. Although the first female characters created by NB Vazirov protested against injustice, they struggled to express their views openly. Vazirov did not take a one-sided approach to the image of women in his plays, but defended the rights of women, and at the same time sharply criticized the images of women who were ignorant. Saadat khanum, created by Vazirov, is raised to the level of a type, and fights against superstition in the same line with Fakhraddin.*

***Key words:*** *dramaturgy, female images, Najaf bey Vazirov, types and image concepts.*

Санубер Ровшан кызы Тапдыгова

**Женские образы в драматургии Наджаф бека Вазирова**

***Резюме:*** *Продолжатель просвещения М.Ф.Ахундова, выдающийся драматург Наджаф бек Вазиров обогатил нашу литературу красочными образами женщин. Главной причиной этого было описание положения женщин, утонувших по невежеству того времени, показать внутреннюю сторону духовенства, практиковавшего шарлатанство под именем ислама. Хотя первые женские образы, созданные Н.Б. Вазировым, протестовали против несправедливости, но открыто выражать свои взгляды им было трудно. Вазиров не однобоко подходил к изображению женщины в своих пьесах, но и отстаивал права женщин, и в то же время резко критиковал образы женщин-невежд. Саадат ханум, созданный Вазировым, возведен в ранг типа и борется с суевериями в одном русле с Фахраддином.*

***Ключевые слова:*** *драматургия, женские образы, Наджаф бек Вазиров, типы и образные концепции.*

Maarfçi-demokrat Nəcəf bəy Vəzirov fəaliyyətini xalqa həsr etmiş, xalqın maariflənməsi üçün qiymətli əsərlər ərsəyə gətirmişdir. “M.F.Axundov maarifçiliyinin ən yaxın mənəvi varisi olan N.B.Vəzirov onun maarifçilik konsepsiyasına və dram nəzəriyyəsinə yeni bədii notlar gətirdi. Həyatın, məişətin və əxlaqın realist səhnədəki əhatə dairəsini daha da dərinləşdirdi,ona yeni janrlar, üslub, dil fərdiliyi artırdı. Axundov ədəbi ənənələrinin dirçəlişi və yüksəlişi bilavasitə onun adı ilə bağlıdır” [2, s. 123].

1854-cü ildə Şuşa şəhərində anadan olmuş “Vəzirov təbiətən sakit və qaradinməz, bədəncə zəif və xəstə olmuşdur. Yazıçının öz qeydlərinə görə 12 yaşında məktəbə getmiş və oxumağı-yazmağı öyrənmişdir... İlk oxuduğu məktəb dini məktəb olmuş, sonra Şuşada məktəbə getmişdir” [1, s. 18].

N.Vəzirov 1863-cü ildə Bakıya gəlir, çox çətinliklərə məruz qalsa da orta məktəbə daxil olmağı bacarır. "Onun ilk gənclik və orta təhsil dövrü Bakının kapitalist inkişafı yoluna düşməsi illərinə, burada inqilabi-demokratik ideyaların yayıldığı illərə təsadüf edir. Bakı mühiti gələcək yazıçının fikri inkişafında əhəmiyyətli rol oynayır; burada onun üçün yeni aləm açılır.O, burada ilk dəfə teatra gedərək rus dramaturqlarının əsərləri ilə tanış olur” [3, s. 503].

Böyük mütəfəkkir N.Vəzirovun yaradıcılığına pyesləri, iqtibasları, hekayələri, balaca mütərriqələr və məqaləlari aiddir. Hidayət Əfəndiyev “M.F.Axundov realist-satirik nəsrinin davamçıları” kitabında N.Vəzirovdan bir hekayənəvis kimi bəhs etmiş, onun hekayə yaradıcılığına toxunmuşdur. Ancaq N.Vəzirovu daha çox sevdirən onun pyesləridir. Onun pyeslərində müxtəlif, rəngarəng obrazlara, xüsusilə maraqlı qadın obrazlarına müraciət etməsi daha çox iki səbəbdən asılıdır: dövrün mühiti və dramarturqun şəxsi həyatı. Hər hansı bir nöqsandan uzaq olan dinimiz İslam hər zaman qadına yüksək dəyər vermişdir. Qurani Kərimin Nisa surəsinin 19-cu ayəsində qeyd olunduğu kimi: “Ey iman gətirənlər! Qadınlara zorla varis çıxmaq sizə halal deyildir! (Qadınlar)





açıq-aşkar pis bir iş görməyincə, özlərinə verdiyinizin (mehrin) bir hissəsini geri qaytarmaq məqsədilə onlara əziyyət verməyin. Onlarla gözəl (Allahın buyurduğu kimi) rəftar edin”. Bu ayədən də aydın olur ki, dinimiz qadınlara qarşı gözəl davranmağı vacib buyurmuşdur. Ancaq o dövr bəzi qaraguruhçu ruhanilər dinimizin adından istifadə edərək yalnış fətvalar veirir, qadınlarınların haqqını qorumaq əvəzinə onlara kölə kimi yanaşır, onların haqqlarını tapdalayırdılar. Anadan olduğu Şuşada, sonra Bakıda şahid olduğu özbaşınalıq, mövhumat, avamlıq, xalqın dözülməz həyat tərzi, qadınlara qarşı olan haqsızlıqlar, təhsilin, elmin, mədəniyyətin inkişaf etməməsi onu narahat etmişdir”.

Maarfçi-demokrat N.Vəzirov bu cür hadisələrlə razılaşa bilmir, qadınların haqqlarının tapdalanmasına qarşı çıxırdı. İkinci səbəb isə Nəcəf bəyin şəxsi həyatında baş verən hadisələr olmuşdur. Belə ki, atası xəstə olduğundan ailənin əsas yükü onun anası Mina xanımın üstünə düşürdü. Anası Mina xanım ailəni dolandırmaq üçün əlindən gələni etmişdir. Ancaq belə bir vəziyyətdə qohumları onlara yardım etməmişdir. Hər iki amil Nəcəf bəy Vəzirovun dram əsərlərində belə rəngarəng qadın obrazları yaratmaq üçün səbəb olmuşdur.

Nəcəf bəy Vəzirovun dramlarındakı qadın obrazlarını şərti olaraq iki yerə bölmək olar. Birinci tip qadın obrazları maarifçiliyi təbliğ edən, ikinci tip qadın obrazları isə əksinə cəhalət yalanlanlarına inanan obrazlardır.

Dramaturqun birinci dövr dram əsərlərinə (1873-1896) “Əti sənin sümüyü mənim”, “Qara günlü”, “Yağışdan çıxdıq, yağmura düşdük”, “Daldan atılan daş topuğa dəyər”, “Sonrakı peşmançılıq fayda verməz”, “Adı var, özü yox”, “Müsibəti-Fəxrəddin”i aid etmək olar. İlk dram əsəri olan “Əti sənin sümüyü mənim” komediyası müəllifin sağlığında itmişdir. “Qara günlü” faciəsi haqqında isə biz Vəzirovun tərcümeyi-hal kitabçasından məlumat alırıq. Müəllif həmin kitabçada qeyd edir: “Bu faciə əri ölüb dul qalmış bir qadının halının təsvir edir ki, qaynı onu cəbrən özünə arvad etmək istəyirmiş” [3, s. 507].

“Daldan atılan daş topuğa dəyər” komediyasında dramaturq cadugərliyi tənqid obyektivinə çevirmişdir. O, bu dramındakı qadın obrazlarını əsas hədəf seçmişdir. Bunun əsas səbəbi isə bu qadınların mövhumata aldanaraq, cahilliyi özlərinə yol tutmalarıdır. “Bu komediyanın mövzusu bəy-məmur ailələrinin məişətindən götürülmüşdür. Cadugərlik və fanatizmin tənqidinə həsr olunmuş bu əsərdə istefaya çıxmış məmur Əbdürrəhman bəy özünü hər cür məişət qayğılarından azad edərək, əyyaşlıqla məşğul olur. Arvadı Xırda xanım isə yetkinlik yaşına çatmış qızını tezliklə ərə verməyin yollarının axtarır” [2, s. 44]. Əsərin əsasında dayanan Xırda xanım avam və mövhumatpərəstdir.

“- Qızın dərdi az dərddi? Onun tayları hamısı gediblər... Püstə xanımın qızı getdi. Nurcahan xanımın qızı getdi. Səfdərqulu bəyin qızı getdi” [6, s. 26].

Xırda xanımın bu sözlərindən də aydın olur ki, qızı Səkinənin ərə getməməsi onun üçün böyük dərdə çevrilmişdir. O, qızını ərə vermək üçün hər yola əl atır. Bu yolda o, cadugərlərə, mollalara, dərvişlərə ümid bəsləyir. Hətta pirlərə, ocaqlara gedərək ora nəzirlər bağışlayır ki, qızı ərə getsin. Xırda xanım

bu yolda özünə Nurcahan xanımı yoldaş bilib, inanır ki, onun əli ilə qızını Həkim İsgəndərə verə biləcək.

Əsərdəki qadın obrazlarından biri də Nurcahandır. "Aralıq övrəti" Nurcahan xüsusi mülkiyyətin hakim olduğu burjua-mülkədar cəmiyyyətində öz insani sifətlərini tamamilə itirmiş son dərəcə rəzil və heysiyyətsiz qadının ümumiləşdirilmiş surətidir " [3, s.511].

Əsərdəki Qulluqçu Pəri xanımın dili ilə verilmiş bu sözlər Nurcahan obrazını bütün çılpaqlığı ilə gözümüzdə canlandırır.

"-Bir deyən gərək, ay xanım, sən Nurcahanı tanımırsan, bilmirsən ki, o gündə min xan qapısında, bəy qapısında duz dadır? ona sirr vermək olar?..." [6, s. 33].

Nurcahan dərvişin ona verdiyi təlimatları yerinə yetirmək niyyəti ilə Həkim İsgəndərin yanına yollanır. Dərvişin verdiyi suyu bir bəhanə ilə həkimə içirir. Bu vaxt otağa Dəli Şirin daxil olur və o, Nurcahanı tanıyaraq hiddətlənir, Nurcahan haqqında bildiyi sözləri həkimə deyir:

"-Dalına qulaq asın! Qocalandan sonra başladı əvvəl miyançılığa. Nə döyülməyi, nə söyülməyi vecinə almadı; arı yedi, namusu atdı dalına. İndi böyük məşğuliyyəti odu ki, gəzər xan evlərini, bəy evlərini, bunun sözünü ona deyər, onun sözünü buna deyər " [6, s. 36].

"Bu əsərdə ifşa üsulu bir az sərtləşmiş, müəllif bütün bu eybəcərlikləri görən və onunla barışa bilməyən Dəli Şirin obrazını əsərə daxil etmişdir. Əslində "ağıllı" Şirin belə bir cəmiyyətdə dəli vəziyyətinə salınır və çıxış yolu tapmayaraq dəliliyi qəbul edib, ürəyindəki mətləbləri açıq deyə bilmək imkanı qazanır. Dəli Şirin köhnə dünyada ağlın faciəsini əks etdirir (K.Məmmədov). Bu obraz "Ölülər" əsərindəki Kefli İsgəndərin ən uğurlu sələfidir " [2, s. 45].

"Daldan atılan daş topuğa dəyər" əsəri yalnız cadugərliyə qarşı yazılmış bir pyes kimi qiymətləndirilmişdir. "Əsərdə əsas tənqid hədəfi bir də cadugərliyi doğuran, ona qol-qanad verən ictimai mühitdir. Feodal həyat tərzi gerilik, avamlıq, hər cür mövhumata inam! Bütün bunlar, eləcə də maarifin, mədəniyyətin olmaması obyektiv səbəblər silsiləsinin bir-birinə rəbt edilmiş həqiqətlərdir" [4, s. 34]. Biz bu dramla M.F.Axundovun "Məstəli şah" dramını müqayisə edə bilərik. Belə ki, hər iki əsərdə qadınların avamlıq ucbatından dərvişlərin uydurduqları yalanlara inanmaları, onlara ümid bəsləmələri və bunun müqabilində dərvişlərə külli miqdarda pul vermələri təsvir olunmuşdur. Ancaq fərq burdadır ki, Axundovun dramında təsadüf nəticəsində dərvişin dediklərinin doğru çıxması ilə, qadınlar dərvişi yalançı, fırıldaqçı kimi deyil, əksinə Parisin dağılmasının səbəbkarı kimi görürlər. "Daldan atılan daş topuğa dəyər" komediyasında isə Xırda xanım sonda Dərvişin və Nurcahanın dediklərinin yalan olduğunu anlayaraq hallı pisləşir və ürəyi gedir.

N.Vəzirovun növbəti dram əsəri "Sonrakı peşmançılıq fayda verməz"dir. Bu dramda o, iki tip qadın obrazını qarşılaşdırır. Fatma xanım köhnəliyi təmsil etdiyi halda, Səlbnaz xanım ailənin yeni prinsiplər əsasında qurulmasının tərəfdarıdır. "Fatma xanımın "başına daş o vaxt düşür" ki, evə təzə gəlin gəlir.





Gəlinin gəlişi ailədə yeni münasibətlər gətirir. Köhnə həyatla yeni həyat üz-üzə gəlir. Köhnə dağılır, yeni də hələlik qurula bilmir" [4, s. 31].

Fatma xanım o dövr köhnəliyi yeni həyata qarşı qoyan insanların bədii ümumiləşdirməsi idi. Ümumiləşmiş obraz bizi bütöv bir dövrün mənzərəsi ilə tanış edir. Salman bəy həyat yoldaşı Səlbnaz xanımla olduqca xoşbəxt həyat yaşayırlar. Dəftərxana Mirzəsi Salman bəy müasir dünyagörüşlü obrazdır. "Məhəbbət, qayğı, qarşılıqlı hörmət onun ailə həyatının əsasını təşkil edir. O, qadına əqidə dostu və məsləkdaş kimi baxır. Səlbnaz xanım da onun qayğısını şəkən, hər addımını dəstəkləyən obraz kimi təqdim olunur" [2, s. 45].

Ancaq köhnəliyin təmsilçisi olan Fatma xanım bu cür münasibətin əleyhinədir. Əsərin sonunda Səlibnaz xanım və Salman bəy Fatma xanımın əlindən qaçırlar. Fatma xanım gənc ailənin məhvinə səbəb olur. "Fatma xanım ailə çərçivəsində balaca bir despotdur. Onun əqidəsinə görə gəlin ərinin və qaynanasının qulu olmalıdır" [4, s. 32.].

"İdeal qəhrəman yaratmağa cəhd etməyən sənətkar əsərdən-əsərə onları müəyyən qədər təkmilləşdirir və öz maarifçi ideologiyasını bu əsərlərin ideyasına hopdura bilir. Bu tendensiya N.Vəzirov yaradıcılığına xas olan özünəməxsusluqdur " [2, s. 46.].

"Yağışdan çıxdıq, yağmura düşdük" dram əsərində N.Vəzirov o dövr üçün xarakterik olan bir sıra mövzulara toxunaraq onları tənqid etmişdir. Məsələn, sinifli cəmiyyətdə pula görə insan psixikasının, halının necə dəyişməsini, pula hərisliyi, çoxarvadlılıq, qadın hüquqsuzluğu və s. Əsərdə hadisələr Hacı Qənbərin ətrafında cərəyan edir. Əsərin birinci hissəsində biz onun pula hərisliyinin şahidi oluruq. Hətta Hacı Qənbər 90 min manatlıq baramanın Qara dənizdə batdığını öyrənərkən dəli olur. Amma daha sonra sığorta şirkəti dəymiş ziyanın qarşılığını verəcəyini söyləyir. Bu xəbəri eşidən Hacı Qənbər özünə gəlir. Əsərdəki sonrakı hadisələrdə isə biz Hacı Qənbərin digər çirkin üzü ilə qarşılaşırıq Belə ki, o, öz həvəslərinə yenilir. Evli olduğu halda 8 yaşından evində saxlayıb 16 yaşına çatdırdığı qulluqçusu Yetərə vurulur və onunla evlənmək eşqinə düşür. Ancaq Yetər Hacı Qənbərlə evlənmək istəmir:

"-Bizim Hacıya bax, Hacıya!... "İtin əbləhi qaysavadan pay umar" – buna deyiblər... Siz Allah, görün heç rəvadırmı ki, mən nəsib olam kimə, bir dişi düşük, kaftar kişiyə. Bihəya oğlu bihəya zəli kimi yapışıbdır..." [6, s. 101].

Hacı Qənbər ona evlilik təklifi edərkən Yetər bu təklifə qarşı çıxır və "mən ölənəcən Dilbər xanımın kəniziyəm" deyir. Hacı Qənbər pula nə qədər həris olsa da, Yetər xanım varı-dövləti heç sayır. Yetər xanım qulluqçu Cəbinin ona gətirdiyi şal və üzükləri də qəbul etmir və belə var-dövlət qazanmağın əleyhinə çıxır. Göründüyü kimi, Vəzirovun yaratdığı qulluqçu obrazı özünü heç də ağasının qulu olan, onun dediklərinə qeyri-şərtsiz əməl etmək məcburiyyətində hiss etmir. "Adı var, özü yox" dramında da qulluçu Telli yeni dünyagörüşün nümayəndəsidir. O da ağasının əxlaqsız təklifini heç nədən qorxmayaraq cəsarətlə rədd edir. İstər Yetər, istərsə də Telli obrazı öz fikirlərini açıq bəyan etməkdə aciz deyil. Tip obrazda olan ümumi oxşarlığın, xarakter isə fərqli

cəhətlərin məcmusudur. Deməli tip anlayışı xarakter anlayışından daha geniş məfhumdur. Bütün bunları nəzərə alsaq Yetər və Telli obrazlarını tip səviyyəsinə qaldıra bilməsəkdə, hər iki obraz gələcəkdə yaranacaq Azərbaycan ədəbiyyatında ilk ziyalı qız obrazı - Səadət xanım üçün bir zəmin yaradırdı.

Digər bir qadın obrazı Hacı Qənbərin həyat yoldaçı Dilbər xanımdır. O, avam olsa da, yoldaşının evlənmək eşqinə düşməsini sakitliklə qarşılamır əksinə öz etirazını bildirərək "çağıraram aləmi tökərəm başıma ki, caamat, Hacı Qənbər təzədən dəli olub, məni - beş uşaq anasını, Fərhad kimi otuz il gülünc çalanı öz evindən qovur..." - deyir.

N.Vəzirov "Müsibəti-Fəxrəddin" əsəri ilə Azərbaycan ədəbiyyatı tarixinə faciə janrını gətirmişdir. Maarifçiliyin təbliğinə həsr edilmiş bu əsərdə ilk dəfə olaraq ziyalı qız obrazı - Səadət xanım obrazı yaradılmışdır. Qan davasının doğurduğu fəlakətlər əsərdə aydınlığı ilə təsvir edilmişdir. Faciədə iki qütb vardır: Rüstəm bəy köhnəliyin geriliyin, Fəxrəddin isə yeniliyin nümayəndəsidir. Səadət xanım isə Fəxrəddini təmiz qəlblə sevən ziyalı bir qızdır ancaq qan davası onların qovuşması üçün ən böyük əngəldir. Belə ki, Səadət xanımın biliklərə yiyələnməsində Fəxrəddin əlindən gələni etmiş, onun bir ziyalı kimi yetişməsində yardım etmişdir. Bu müddət ərzində onların bir-birinə qarşı məhəbbət hissləri oyanmışdır. Fəxrəddin təhsilini davam etdirmək üçün vətəndən uzağa gedəndə isə onların məhəbbəti daha da qüvvətlənmişdi. "Səadət xanım da Fəxrəddin kimi, XIX əsr Azərbaycan həyatının işıqlı tərəflərini təmsil etməklə, vətəninin abad, həmvətənlərini xoşbəxt görmək istəyir. Səadət xanımı Fəxrəddinlə birləşdirən ideya da məhz yeni həyatla, geridə qalmış kəndin abadlaşması ilə, qan davasına sonsuz niffətlə bağlı idi" [4, s.77]. Ancaq cəhalət onların qovuşmasına mane oldu. Əsərin sonu faciə ilə bitir, Fəxrəddin öldürülür. Səadət xanımın da Fəxrəddinlə birgə arzuladığı həyat puş olur. Sonda Fəxrəddinin cəsədinin başında ağlayan Səadət xanım özünə ölüm arzulamır, əksinə Fəxrəddinə söz verir ki, onun yarımçıq qalmış arzularını həyata keçirəcək.

"-Belə namərdlik olmazdı ki, sən elədin, Fəxrəddin... Uff! Ürəyimə bir dağ çəkdin, ölənəcən yandıracaq, Fəxrəddin!.. Mən səni bu mərtəbədə istəməsəydim, Fəxrəddin, bir dəqiqə bu dünyada sağ qalmazdım. Ölsəm əziyyətdən xilas ollam, Fəxrəddin, onu istəmirəm... Nə qədər canım sağdır, sənə təziyədar qalacağam, gündə beş vaxt qəbrinin başına dolanıb,azarxanada, məktəbxanada mücavirlik edəcəyəm. Səndən sonra ömrüm uzun ola bilməz! Fəxrəddin, vəsiyyət edəcəyəm qəbrimizi bir etsinlər... Heyf sənə, Fəxrəddin, bu vəhşi nadanlar sənin qədrini-qiymətini bilmədilər..." [6, s. 142].

"İctimai inkişafın əsas qanunauyğunluqlarını kamil ifadə edən, insan xarakter və taleyini ümumiləşdirən surətlər - tipdir. Hər tip öz xalqının övladıdır" [5, s. 38]. N.Vəzirov bu faciədə Səadət xanımı tip səviyyəsinə qaldırır. Səadət xanım da daim xalqını fikirləşir. Elmini, biliyini xalqı yolunda sərf etmək istəyir.





Fəxrəddinin ölümü ilə qəmginliyə düşsə də, özünə ölüm arzulamır, axı Fəxrəddinin yarımçıq qalan arzuları həm də Səadət xanımın arzuları idi.

Oxumağa, elmə böyük marağı olan, maarifçilik mühitində təhsil alan Vəzirov cəhaləti, nadanlığı qəbul edə bilmirdi. Bu səbəbdən də onun dramlarında əsas tənqid hədəfi mövhumatı yayan nadan insan tipləri və onların çaynağında əzilən qadın obrazları olmuşdur. Ancaq həmin qadın obrazları hər zaman fikirlərini açıq-aydın söyləməkdə azad deyildirlər. Bəzən son çarəni qaçış yolunda görürdülər (Yetər), bəzən bu qadınlar cəmiyyətdə istədikləri həyat yolunu tuta bilmirdilər, köhnə fikirlər onların xoşbəxtliyinə mane olurdu (Səlbnaz). Bəzi hallarda isə Vəzirov cəhalətə uyan, mövhumatın çızdığı yolu doğru bilib, bu yolda irəliləyən qadınları tənqid hədəfinə çevirirdi (Nurcahan, Fatma). Digər maraqlı cəhət ondan ibarətdir ki, Vəzirov dramlarının sonunda mövhumatcı tərəf hər zaman məğlubiyyətə uğrayır. Doğrudur, yeni həyatın tərəfdarları olan qadın obrazları tam qələbə çalmasalar da, mövhumat zindanında əsir olmurlar, özlərinə bir çıxış yolu tapırlar.

Görkəmli dramaturq qadın obrazlarını yaradarkən bədii ümumiləşdirmələrdən, bədii priyomlardan istifadə edirdi. Ancaq Vəzirov dramlarında daha çox bədii müqayisələr aparmışdır. Onun dramlarında çox zaman yeni ilə köhnə qarşı-qarşıya gətirilir. Yenilik köhnəliyin qatı zülmətinin üzərinə işıq salır. Bu işığa qarşı gözləri kor olan cəhalət tərəfdarları elə bu zülmətdə də məhv olurlar. Vəzirovun faciəsində də iki qütb qarşılaşdırılır. Maarifçiliyi təbliğ edən Fəxrəddin və Səadət xanım dövrün müasir baxışlı gəncləridir. Səadət xanım tip səviyyəsinə qaldırılır, Fəxrəddinlə eyni cərgədə mövhumata qarşı mübarizə aparır. Əsərin sonu Fəxrəddinin faciəvi ölümü ilə bitsə də, onun ideallarını Səadət xanım davam etdirəcəyinə söz verir. Sanki dramaturq burada bizə söyləmək istəyir ki, köhnə fikir, mövhumat maarifçilik alovunu heç zaman söndürə bilməz, çünki onun közərtiləri hər zaman yaşayacaq.

## ƏDƏBİYYAT

1. *Əsgərli Z. Nəcəf bəy Vəzirov . - Bakı, 1998. - 56 s.*
2. *Həsənova M. Nəzəri fikrin işığında . - Bakı, 2019. -191 s.*
3. *Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı. - Bakı, 2018. - 550 s.*
4. *Məmmədov K. Nəcəf bəy Vəzirov . - Bakı, 1995. - 201 s.*
5. *Mir Cəlal, Xəlilov P. Ədəbiyyatşünaslığın əsasları. - Bakı, 2005. - 311 s.*
6. *Nəcəf Bəy Vəzirov. Seçilmiş əsərləri. - Bakı, 2005. - 422 s.*